

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 187 (21.597)

6 oktyabr 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadənin etimadnaməsini qəbul edib.

Cavad Cahangirzadə etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

Görüşdə ikitərəfli əməkdaşlıq əlaqələrinin müxtəlif sahələrdə, xüsusən təhlükəsizlik, nəqliyyat, infrastruktur layihələri, kənd təsərrüfatı, turizm kimi sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Qətər Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yusif bin Həsən əl-Sainin etimadnaməsini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Rumıniyanın ölkəmizdə yeni təyin olunmuş səfiri Dan İankunun etimadnaməsini qəbul edib.



## Yeni Azərbaycan Partiyası ərazi ilk partiya təşkilatlarının birgə hesabat-seçki yığıncağı keçirilib

***Oktyabrın 5-də Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi və "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti müəssisədənkənar ərazi ilk partiya təşkilatlarının birgə hesabat-seçki yığıncağı keçirilib.***

Tədbiri açıq elan edən nəqliyyat nazirinin müavini Əli Hüseynəliyev yığıncağın gündəliyində duran məsələlər barədə məlumat verib. Bildirib ki, yığıncaqda Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi və "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti müəssisədənkənar ərazi ilk partiya təşkilatlarının hesabatı dinləniləcək, həmin təşkilatların birləşdirilməsi məsələsi müzakirə olunacaq, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının XI konfransına nümayəndələr seçiləcəkdir.

Hesabat-seçki yığıncağının gündəliyi yekdilliklə qəbul olunub.



Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi müəssisədənkənar ərazi ilk partiya təşkilatının hesabatı və qarşıda duran vəzifələr barədə çıxış edən ərazi ilk partiya təşkilatının sədri Natiq Həsənov bildirib ki, təşkilatın uçotunda 35 nəfər partiya üzvü vardır. Ötən hesabat-seçki yığıncağından keçən dövr ərzində 9 nəfər bitərəf partiya üzvlüyünə qəbul edilib ki, onların da əksəriyyəti gənclərdir. İlk partiya təşkilatının yığıncaqları vaxtlı-vaxtında keçirilib, Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirələrdə qarşıya qoyulan vəzifələrin icrası müzakirə olunub.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı "Naxçıvan Dəmir Yolları" MMC ərazi ilk partiya təşkilatının sədri Musa Əliyev çıxışında deyib ki, öz ətrafında 118 dəmiryolçunu birləşdirən təşkilatın üzvləri ötən müddət ərzində siyasi proseslərdə fəal iştirak etməyə çalışıblar. Aparılan təbliğat-təşviqat, ideya-siyasi işlərin nəticəsində partiya sıralarına 17 nəfər gənc üzv qəbul edilib. Sıralarımızda olan Yeni Azərbaycan Partiyası fəalları muxtar respublikada keçirilən bütün seçkilərdə və ümumxalq səsverməsində (referendumda) iştirak ediblər, fəallardan bir neçəsi seçki məntəqəsinin sədri və üzvləri kimi fəaliyyət göstərib.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi və "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti müəssisədənkənar ərazi ilk partiya təşkilatlarının hesabatları qənaətbəxş hesab olunub.

Gündəlikdə duran digər məsələ barədə danışan Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədr müavini Ramil Orucəliyev Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi və "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti müəssisədənkənar ərazi ilk partiya təşkilatlarının birləşdirilməsinin əhəmiyyətini qeyd edib. Təklif yekdilliklə qəbul edilib və yeni yaranmış təşkilat Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi müəssisədənkənar ərazi ilk partiya təşkilatı adlandırılıb.

Müəssisədənkənar ərazi ilk partiya təşkilatının yeni idarə heyətinin üzvləri, sədri və sədr müavinləri seçilib.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi müəssisədənkənar ərazi ilk partiya təşkilatının yeni sədri Natiq Həsənov qarşıya qoyulan vəzifələri məsuliyyətlə icra edəcəyini bildirib.

Sonra Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının XI konfransına ərazi ilk partiya təşkilatından 7 nəfər nümayəndə səsvermə yolu ilə seçilib.

Bununla da, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi ərazi ilk partiya təşkilatının hesabat-seçki yığıncağı başa çatıb.

✍ **Rauf ƏLİYEV**

## Torpaqlardan təyinatı üzrə və səmərəli istifadə olunması diqqət mərkəzindədir



***Əhalinin artım tempi, əkinəyararlı torpaq sahələrinin məhdudluğu, ərzaq məhsulları ilə etibarlı təminatının möhkəmləndirilməsi zərurəti torpaq münasibətlərinin düzgün şəkildə tənzimlənməsini, torpaq ehtiyatlarının dövlət idarəetməsi mexanizminin mütəmadi olaraq təkmilləşdirilməsini tələb edir. Fərman və sərəncamların, qəbul olunmuş dövlət proqramlarının icrası aqrar sahənin inkişafında yeni mərhələ olmaqla yanaşı, bu prosesdə mühüm əhəmiyyət daşıyan torpaqdan düzgün və səmərəli istifadəni də günün tələbinə çevirib. Torpaqlardan səmərəli istifadə edilməsi məqsədilə həyata keçirilən işlər təkcə bu günümüzə deyil, eləcə də gələcəyimizə hesablanmış iqtisadi və sosial siyasətin tərkib hissəsidir.***

Bu fikirlər Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən Culfa rayonunda keçirilən, yerli icra nümayəndələrinin və bələdiyyələrin iştirak etdiyi tədbirdə səsləndirilib.

Tədbiri giriş sözü ilə Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev açaraq bölgədə torpaqlardan təyinatı üzrə və səmərəli istifadə olunması, qanunsuz tikinti aparılmasının qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlərdən danışıb, bu sahədə icra nümayəndələrinin və bələdiyyələrin qanunvericiliyin tələbləri haqda ətraflı məlumata malik olmalarının vacibliyini qeyd edib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri Müslüm Cabbarzadə bildirib ki, iqtisadiyyatın bazar münasibətləri əsasında qurulması, aqrar islahatların həyata keçirilməsi, yeni emal müəssisələrinin yaradılması və digər tədbirlər aqrar bölmənin sosial və sahə strukturuna ciddi təsir göstərib, zaman keçdikcə məzmunca yeni münasibətlərin formalaşmasını günün tələbinə çevirib. Mülkiyyət hüquqlarının tənzimlənməsi sahəsində müvafiq dövlət siyasətinin daha da təkmilləşdirilməsi muxtar respublikamızda torpaq və əmlak münasibətlərinin inkişafını yeni mərhələyə yüksəldib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən müvafiq qurumlara əkinəyararlı torpaqlardan səmərəli istifadə edilməsi, torpaqlardan istifadəyə dövlət nəzarətinin gücləndirilməsi barədə tapşırıqlar verilib, aid mərkəzi və yerli icra hakimiyyəti orqanları qarşısında konkret vəzifələr müəyyənləşdirilib. Verilmiş tapşırıqların icrası ilə bağlı Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mərkəzi aparatı və rayon (şəhər) idarələrinin mütəxəssislərindən ibarət komissiyalar yaradılıb, mütəmadi olaraq rayonlarda və Naxçıvan şəhərində dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlardan istifadə vəziyyəti yoxlanılıb. Yoxlama zamanı torpaq sahələrinin və üzərindəki tikililərin naturadakı vəziyyəti bələdiyyələrin yerquruluşu planları ilə müqayisə edilib. Yerlərə baxış keçirilərkən muxtar respublikanın bütün şəhər və rayonlarında torpaq qanunvericiliyinin tələblərinin pozulması, vətəndaşların dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlardan qanunsuz istifadə halları, torpaq islahatı zamanı əkin sahəsi kimi xüsusi mülkiyyətə verilmiş pay torpaqlarında yaşayış evi və yardımçı tikililər inşa edilməsi faktları aşkara çıxarılıb. Vurğulanıb ki, qeyd olunan əməllərin törədilməsi torpaqlardan qanuni istifadə, ona sahiblik və onun barəsində sərəncamvermənin qaydalarını pozur, torpaqların təyinatının dəyişməsinə və qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur. Torpaq sahəsində tikinti və abadlaşdırma işlərini qüvvədə olan planlaşdırma-memarlıq, tikinti, sanitariya-gigiyena, yanğından mühafizə və müəyyən edilmiş digər tələblərə uyğun olaraq həyata keçirmək daim diqqətdə saxlanılmalıdır. Torpaq sahəsində olan mərzləri, təbiət abidələrini, geoloji təzahürləri, geodeziya-istinad məntəqələrini və yerüstü nişanları, meteoroloji şəbəkələri və ölçü vasitələrini, habelə meliorasiya və irriqasiya sistemlərini qoruyub saxlamaq, torpaq sahəsi ilə bağlı öhdəliklərə əməl etmək torpaq üzərində hüquqlarını həyata keçirən hər bir mülkiyyətçinin, istifadəçinin və icarəçinin başlıca vəzifəsi olmaqla bərabər, həm də hər birimizin vətəndaşlıq borcumuzdur. Çünki perspektiv inkişafın təmin edilməsi, əhalinin ərzaq tələbatının daha dolğun ödənilməsi bu gün sahib olduğumuz torpaqların mühafizə edilməsindən, ondan səmərəli istifadə səviyyəsindən asılıdır.

Sonra məruzə ətrafında komitənin əməkdaşlarından İntizar Həziyevin və Tural Cəfərovun çıxışları olub.

Sonda iştirakçılara maarifləndirici bukletlər paylanılıb.

✍ **Səbuhi HÜSEYNOV**

***Son illər muxtar respublikamızda həyata keçirilən irimiqyaslı layihələr digər sahələrdə olduğu kimi, abonentlərin fasiləsiz və təhlükəsiz elektrik enerjisi və təbii qazla təminatına da əlverişli şərait yaradıb.***

## Smartkarttipli sayğacların quraşdırılması davam etdirilir

Müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla sərf olunan elektrik enerjisi və təbii qazın dəqiq uçotunun aparılması məqsədilə sayğacların quraşdırılması işi vaxtında başa çatdırılıb. Ötən ilin iyul ayından isə Naxçıvan şəhərində daha müasir, ön ödənişli, smartkarttipli sayğacların quraşdırılmasına başlanılıb.

Bu məqsədlə həyata keçirilən tədbirlər cari ildə də davam etdirilir. Naxçıvan şəhərində smartkarttipli elektrik və qaz sayğaclarının quraşdırılmasına başlanılması naxçıvanlılar tərəfindən onlara göstərilən daha bir qayğı kimi dəyərləndirilir. Qeyd edək ki, bu sayğacların əsas xüsusiyyəti abonentlərin elektrik enerjisi və təbii qazla təminatını öncədən ödəniş etməklə həyata keçirməkdən ibarətdir. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyindən aldığımız məlumata görə, ötən ilin iyul ayından Naxçıvan şəhərinin müxtəlif məhəllələrində, təmir edilmiş ictimai yaşayış binaları və fərdi yaşayış evləri yeni sayğaclarla təchiz olunub. İndiyədək 13 min 300 ədəd sayğac quraşdırılıb.

Əhali qrupu üzrə təbii qaz istehlakçılarının mavi yanacaqdan müasir standartlara cavab verən texnologiyalar vasitəsilə istifadəsi məqsədilə Naxçıvan şəhərində ön ödənişli, smartkarttipli qaz sayğaclarının quraşdırılması da davam etdirilir. "Naxçıvanqaz" İstehsalat Birliyindən aldığımız məlumata görə, indiyədək Naxçıvan şəhərində 12 min 135 ədəd sayğac quraşdırılıb. Sayğacların kənar müdaxilələrdən mühafizəsi də diqqətdə saxlanılıb. Bu məqsədlə qutular alınıb. Sayğacların hər biri Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçirilərək quraşdırılır.

**Xəbərlər şöbəsi**

Dövlət proqramı necə icra olunur?

# Ordubadda meyvəçiliyin şöhrəti özünə qaytarılır

## *Bu sahənin inkişafına hərtərəfli şərait yaradılıb*

***Sağlam qidalanmada meyvə əsas şərtdir. Zəngin vitamini insanlar məhz bu lazım nemətlərdən alır. Bəşəriyyətdə baş verən müharibələr, aclıq, səfalət zamanlarında meyvələr bəzi insanlara bu ağır dönəmi keçməyə kömək edib. Meyvəçilik muxtar respublikamızda həmişə insanların sevdiyi, onların məşğulluğunu təmin edən bir sahə olub. Bu sahədə bağlar diyarı kimi tanınan Ordubad rayonu xüsusilə seçilib. Özü də, əsasən, bu bölgə ərik bağları ilə məşhurlaşıb. Bu bağlarda yetişdirilən müxtəlif növ əriklər dünyada yetişdirilən ərik növləri içərisində birinci yerdə dayanıb.***

“Naxçıvan tarixi” çoxcildliyində verilən bir məlumatda oxuyuruq: “Hər il orta hesabla Ordubaddan Tiflisə, oradan isə Ağstafa dəmir yolu vasitəsilə Rusiyanın mərkəzi şəhərlərinə 150 min pud quru ərik daşınırdı”. Tək elə bu fakt Ordubad əriyinin dadından-tamından, alıcı bolluğundan xəbər verir.

Meyvəçiliyin çox gəlir gətirən sahə olduğunu o dövrün statistikası da təsdiq edir. A.X.Pollovun hesablamalarında göstərilir ki, ərik ağacları əkilmiş hər desyatin torpaq sahəsində 200 ortayaşlı ağac olurdu və bunların hərəsindən 600 pud məhsul götürülürdü. Ərik qurusunun hər pudu həmin ərazidə 50 qəpiyə satılırdı. Hər desyatin ərik bağından sahibkarlar 280 manat təmiz gəlir götürə bilirdilər...

Bu barədə rayonun yaşlı sakini İbrahim Əliyevlə həmsöhbət olub öyrəndik ki, Ordubadda boş qalmış torpaq sahəsi olmayıb. Buranın torpağı meyvəçilik üçün gəlirli olduğundan bağbanlar həvəslə bu sahəni inkişaf etdiriblər. Deyir ki, vaxtilə Ordubadda 40 növdə ərik yetişdirilib. Bu sahədə Xanağa, Dəstə, Vənənd, Ağrı, Dizə, Düylün kəndləri xüsusilə seçilib. Bu kəndlərdəki bağlarda öz dadı və ətri ilə seçilən əbutalibi, haqverdi, şalax, göycənabat, ağcanabat, badam-ərik, kərikəri, növrəstə, balyarım, həbalı, hədci, gilərik kimi ərik növləri daha çox yetişdirilirdi.

O dövrün meyvəçilik tarixindən söz açan həmsöhbətim bildirir ki, Karteliyada və İrəvan quberniyasında keçirilən meyvəçilik sərgilərində Ordubad əriyi ən yüksək yerdə dayanıb. Əbutalibi əriyi 1898-ci ildə Kaliforniyada təşkil olunmuş meyvəçilik sərgisində birinci yerə layiq görülüb. Həmçinin dünyanın müxtəlif ölkələrində keçirilmiş sərgilərdə Ordubad meyvələri qızıl medallar qazanıb. 1866-cı ildə Ordubad şəhərindən 2 min pud əriyin bazara çıxarılması faktı da Ordubadda insanların meyvəçiliyə göstərdikləri marağı təsdiq edir.

Öyrəndik ki, bu sahə indi yenidən dirçəldilməkdədir. İcrası uğurla başa çatdırılan “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” rayonun meyvəçilik ənənələrinin inkişafına münbit şərait yaradıb. Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində, emal müəssisələrinin xammalla təchiz olunmasında və məşğulluğun təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən həmin proqramın davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” qəbul olunub. Dövlət proqramının qarşıya qoyduğu vəzifələrlə bağlı Ordubadda yeni bağların salınması, yerli meyvə sortlarının inkişafı və yeni sortların gətirilərək əraziyə uyğunlaşdırılması istiqamətində işlər getdikcə daha geniş vüsət alır. Rayon Statistika İdarəsindən aldığımız məlumat da bunu təsdiq edir. 2012-ci ildən bu yana Ordubadda meyvəçiliyin inkişafı istiqamətində görülən işlərə nəzər salanda aydın olur ki, həmin ildə bu bölgədə 673,31 hektar bağ olduğu halda, hazırda Ordubadda 705 hektar bağ mövcuddur. Həmin il barverən bağlar 524,94 hektar təşkil edib və bu bağlardan 2640,6 ton məhsul götürülüb. Bu gün Ordubad bağlarının 598 hektarı bar verir və bu bağlardan hələlik 14 ton məhsul götürülüb. Bu illərdə Sahibkarlığa Kömək Fondundan meyvəçilik üçün 7 nəfərə 98 min manat kredit verilib. 2012-ci ildə Dəstə kəndində 0,3 hektar sahədə tinglik, Xanağa, Gilançay, Biləv, Düylün və Dəstə kəndlərində, ümumilikdə, 11 hektar bağ salınıb.



2013-cü ildə bu iş Ordubad şəhəri, Tivi, Aşağı Əylis, Dəstə kəndlərində həyata keçirilərək 10 hektarda reallaşdırılıb. Sonrakı ildə rayonun müxtəlif kəndlərində, ümumilikdə, 13,4 hektar sahədə yeni meyvə bağı salınıb.

Ötən il meyvəçilikdə görülən işlər daha da genişləndirilib. Belə ki, rayonun Dəstə kəndi ərazisində 3,5, Düylündə 2 hektar, Əylisdə 15 hektar, həmçinin iməciliklər yolu ilə 5,5 hektar sahədə yeni ağaclar əkilib, 5 hektarda bərpa işi aparılıb. Ötən ilin payızında isə Dəstə kəndi ərazisində 5 hektar sahədə ərik bağı salınıb.

Rayonda meyvəçiliyin digər sahələri də inkişaf etdirilir. Cari ilin yazında Dəstə kəndində 1 hektar sahədə alma bağı, Gilançay vadisində 1 hektar sahədə cəviz bağı, Aşağı Əylis kəndində 9,5 hektar sahədə müxtəlif meyvələrdən ibarət yeni bağlar salınıb.

Güclü təsərrüfatçılıq ənənələri, qabaqcıl meyvəçilik təcrübəsi yaradılmış Ordubad rayonunda tarixən yetişdirilən, ölkəmizin müxtəlif bölgələrinə yayılan, dünya sərgilərində iştirak edən ərik sortlarının bərpası, yaşadılması bu gün vətənpərvərlik işinə çevrilib. Bu sahə ilə məşğul olanlardan biri də Ordubad şəhər sakini Əbdül Haşımovdur. Təcrübəli bağbanla söhbətimizdə öyrənirik ki, hər bir ordubadlı meyvəçilikdə genetik fondun qorunub saxlanmasını özünün vətəndaşlıq borcu sayır. Vurğulayır ki, muxtar respublikanın torpaq, iqlim və relyef xüsusiyyətlərinə asan uyğunlaşan meyvə sortlarından ibarət tingçilik sahələrinin yaradılması da bizim üzərimizə düşür və bu istiqamətdə hər bir bağban səy göstərməlidir.

Onun sözlərinə görə, çox qədim zamanlardan Təbriz bazarında Ordubadın əbutalibi əriyi, mərəs alçası və sarı albuxarası çox satılıb. İndi o mərəs alçanın kökü kəsilmək üzrədir.

Deyir ki, Ordubadda cəviz ağacları da yaxşı məhsul verib. Və bildirir ki, bizim cəviz sortlarını Kaliforniyaya aparıb seleksiyasını çıxarıblar. Limon əriyi, heyva, albuxara növlərini ermənilər ötən əsrin 50-ci illərində Amerikaya aparıblar. Ordubadın qədim əsgərabad əriyinin, göy əriyin kökü kəsilmişdi. Onları gedib İranın uzaq əyalətindən tapıb gətirmişəm. Bundan başqa, 7-8 növ şaftalı gətirmişəm.

Bəli, Əbdül Haşımov Ordubadın gəlirli sahəsi olan meyvəçiliyin inkişafı ilə məşğuldur. Yaratdığı tingçilik təsərrüfatında həm yerli meyvə sortlarını çoxaldıb satır, həm də başqa yerlərdən gətirdiyi meyvə sortlarını yerli şəraitə uyğunlaşdırıb çoxaldır. Təcrübəli bağban 50 calaq növündən istifadə edir. Azərbaycanın müxtəlif bölgələrinə onun tingləri aparılır. Amma bildirir ki, Naxçıvanın havası, suyu, torpağı burdakı meyvələrə daha yüksək təam verir. Odur ki, gənclər bu sahəyə maraq göstərib təhsil alsalar, bacarməni biliklə yerinə yetirsələr, meyvəçilik daha yaxşı inkişaf etdirilər, yaxşı gəlir gətirər. Çünki torpaqda bağ salınmamışdan becərmə aparılmalı, ağacların inkişafına, məhsuldarlığına elmi şəkildə nəzarət olunmalıdır.

Deyir ki, bu bölgənin ərikləri şirinliyi ilə seçilir. Qurusu da, hazırlanan müxtəlif konserv məmulatları da yaxşı qazanc gətirir. Əgər ağ növrəstə əriyinin bir ağacından 175-200 kiloqram, haqverdi əriyinin bir ağacından 150-200 kiloqram məhsul götürmək olursa, ağcanabatdan şəkərsiz cem bişirilirsə, XIII əsrdən bağlarımızda becərilən badamı əriyinin bir ağacından 120-150 kiloqram, bir meyvəsinin çəkisi 60-65 qram olan hampa əriyinin bir ağacından 175-200 kiloqram, balyarım əriyinin bir ağacından 70-100 kiloqram məhsul götürülməsi mümkündürsə, niyə çoxaldılmasın?

Ordubad rayonunda iki soyuducu anbar da tikilib təsərrüfatçıların istifadəsinə verilib. Birinin tutumu 250, digərinin tutumu 100 ton olan bu anbarlarda bağların məhsullarını təptəzə saxlamaq imkanı var. Həmçinin Ordubad və Naxçıvan şəhərlərində təşkil olunan satış-yarmarkalarında ordubadlı təsərrüfatçılar bağlarının ətirli meyvələrini satışa çıxarıb qazanc əldə edirlər.

Bir sözlə, Ordubadın qədim meyvəçilik tarixi var. Meyvəçiliyin inkişafında, onun şöhrətinin geri qaytarılmasında, əhalinin daha yaxşı gəlir sahibi olmasında, insanların məşğulluğunda mühüm əhəmiyyət kəsb edən meyvəçiliyin inkişafına hərtərəfli şərait yaradılıb. Ona görə də inanırıq ki, Ordubad bundan sonra da barlı-bəhrəli meyvə bağları ilə buraya gələnləri məftun edəcəkdir.

**Hafizə ƏLİYEVA**

# Şərurda aqrar sahə dinamik inkişaf yolundadır

***Şərur rayonu muxtar respublikamızın kənd təsərrüfatı ilə məşğul olan ən iri bölgələrindən biridir. Rayonun iqtisadiyyatında heyvandarlıq, taxılçılıq, kartofçuluq, bostan-tərəvəzçilik, meyvəçilik aparıcı rol oynayır. Cari ildə bölgədə 17 min 115 hektar sahədə əkin aparılıb ki, onun da 7 min 637 hektarını taxıl, 760 hektarını kartof, 1578 hektarını tərəvəz, 1120 hektarını qarğıdalı, 491 hektarını paxlalı bitkilər, 31 hektarını günəbaxan, 474 hektarını bostan bitkiləri və sair təşkil edib. Rayonda taxıl biçini optimal müddətdə başa çatdırılıb, sahələrdən 24 min 117 ton məhsul toplanmaqla, hər hektarın məhsuldarlığı 31,6 sentnerə yüksəlib. Rayonda növbəti payızlıq taxıl əkininə start verilib.***

Yeri gəlmişkən onu da deyək ki, bu ilin yazında 1324 nəfər torpaq mülkiyyətçisinə 664 min 600 manat yardım edilib və 1487 ton mineral gübrə paylanılıb. Bununla yanaşı, kənd təsərrüfatı ilə məşğul olan istehsalçılara “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən 25 ədəd müxtəlif kənd təsərrüfatı texnikaları lizinq yolu ilə satılıb.

Rayonun torpaq mülkiyyətçilərinin kartof istehsalı və tədarükü sahəsində də yaxşı ənənələri var. Son illər rayonda kartofçuluğa marağın daha da artması müşahidə olunur. Torpaq adamları çalışırlar ki, aqrotexniki qaydalara əməl etməklə yüksək məhsuldarlığa nail olsunlar. Artıq kartof yığımı başa çatıb, 10 min 266 ton məhsul tədarük edilib. Bu il rayonda digər kənd təsərrüfatı məhsullarının istehsalında da məhsuldarlığın yüksək olacağı gözlənilir. Tərəvəz yığımı davam etdirilir, hələlik tarlalardan 16 min tona yaxın məhsul yığılıb. Bostançıların da üzü gülür, onlar da bol məhsul hasilə gətirə biliblər. İndiyədək 5 min 300 tondan artıq bostan məhsulları tədarük olunub. Hələlik 1500 tondan artıq paxlalı bitkilər, 7 min 400 tondan artıq qarğıdalı istehsal edilib. Rayonda kənd təsərrüfatı məhsullarının tədarükü səngimir. Məhsul yığımı payızın son aylarınadək davam edəcəkdir.

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” rayonda meyvəçiliyin inkişafına təkan verib. Bu il barverən meyvə bağlarından indiyədək 15 min tondan çox meyvə satışa çıxarılıb. Hələ bağlarda məhsul boldur. Bu günlər rayonda şaftalı, alma, armud yığımının qızğın çağıdır. Heyva və nar da yetişmək üzrədir. Rayonda 2 min tondan artıq tutumu olan 10 soyuducu anbar vardır. Əhalinin payız-qış mövsümündə də meyvə və tərəvəz məhsulları ilə təminatını yaxşılaşdırmaq məqsədilə tələbatdan artıq istehsal olunmuş belə məhsulların soyuducu anbarlara qəbulu və onların standartlara uyğun şəkildə saxlanılması təmin edilir.



Bəllidir ki, kənd təsərrüfatı məhsullarının istehsalının intensiv surətdə artırılması başqa mühüm amillərlə yanaşı, suvarma işinin düzgün təşkilindən də çox asılıdır. Rayonda hazırda 27 min hektardan artıq sahə suvarılır. Rayon Suvarma Sistemləri İdarəsi torpaq mülkiyyətçilərinə 321,6 kilometr uzunluğunda kanallar və arxlar vasitəsi ilə xidmət göstərir. Bundan əlavə, Araz çayı və Arpaçay sahillərində quraşdırılmış nasos stansiyalarının, subartezian quyularının gücündən də istifadə edilir. Bu il də Arpaçay dəryaçasında suyun bol olması əkinlərin vaxtında suvarılmasını təmin edib, su nasos stansiyalarında və kanallarda əsaslı və cari təmir işləri aparılıb, maşın və mexanizmlərin gücü ilə arx və kanallarda lildən təmizləmə işləri, subartezian quyularının əsaslı və cari təmir işləri davam etdirilib.

Hazırda rayonun təsərrüfatlarında 36 min 198 min baş qaramal, 131 min 512 baş davar mövcuddur. Bölgə iqtisadiyyatında heyvandarlıq mühüm əhəmiyyət kəsb etdiyindən bütün növ heyvanlar arasında aparılan diaqnostik tədbirlər, eləcə də qarayara, brusellyoz, çiçək, dabaq və sair xəstəliklərə qarşı aparılan profilaktik tədbirlər yerinə yetirilib, görülmüş işlər nəticəsində rayonda iri və xırdabuynuzlu heyvanlar arasında heç bir infeksion xəstəlik qeydə alınmayıb, heyvanların baş sayı artıb, məhsuldarlıq yüksəlib. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılır.

2016-cı ilin ötən dövrü ərzində rayonda diri çəkidə ət, həmçinin süd, yun, yumurta istehsalı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə artıb.

Rayonda kənd təsərrüfatı məhsullarının istehsalı və tədarükü sahəsində əldə edilən uğurlar bir tərəfdən bu sahədə çalışanların zəhməti hesabına mümkün olubsa, digər başlıca amil hərtərəfli və davamlı dövlət qayğısı bu prosesdə mühüm rol oynayıb. Rayonun torpaq mülkiyyətçiləri və fermerləri dövlətimizin onlara göstərdiyi qayğıdan ruhlanaraq bu uğurları daha da artırmaq əzmindədirlər.

Bu, təkzibolunmaz faktdır ki, ölkə başçısı cənab İlham Əliyevin birbaşa rəhbərliyi altında regionların inkişafı üçün həyata keçirilən siyasət respublikamızın kəndlərində, həqiqətən, öz gözəl bəhrəsini verir. Bir tərəfdən məhsul istehsalı artır, yeni infrastrukturlar qurulur, o biri tərəfdən də insanların rifahı yaxşılaşır. Şərurda olduğu kimi…

**Elman MƏMMƏDOV**

*Axtarışlar, tapıntılar*

# Tarixi fotoşəkil ən yaxşı tədqiqat əsəridir

***Görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin Naxçıvan şəhərindəki ev-muzeyində orijinal bir fotoşəkil var. Bu tarixi fotoşəkli ilk dəfə 2004-cü ildə "Şərq qapısı" qəzetində çap etdirmişik. Elə həmin yazıda bildirmişdik ki, bu fotoşəkillə bağlı araşdırmalara başlamışıq. İndiyədək bir çox kitablarda, jurnallarda və muzeylərdə maraqla qarşılanan bu fotoşəkildəki şəxsiyyətlərin bir neçəsi dəqiqləşsə də, axtarışlara, araşdırmalara son nöqtə qoyulmamışdı. Biz istəyirdik, şəxsiyyətlərin kimliyi dəqiq müəyyənləşdirilsin. Çünki hiss edirdik ki, müəyyənləşdirmədə ehtimallar da var. Artıq bir ay olar ki, araşdırmalarımıza son nöqtə qoyulub desək, səhv etmərik. 2004-cü ilədək çox az adamların gördüyü bu fotoşəkildəki şəxsiyyətlərin kimliyi və fəaliyyəti haqqında öyrəndiklərimizi oxucularla da bölüşmək arzusundayıq.***

Qeyd edək ki, axtarışlarımızın uğurlu nəticələnməsinə "Avrasiya Gündəliyi" portalındakı müsahibə səbəb oldu. Bu ilin iyun ayında Bakıda Dünya Azərbaycanlılarının IV Qurultayı keçirildi. Qurultaya gələn nümayəndələrdən biri də İrəvan xanlarının qürbətdə yaşayan varislərindən olan Turhan Turqut idi. Onun "Avrasiya Gündəliyi" portalında müsahibəsi çox maraqla qarşılanmışdı.

Turhan Turqutun müsahibəsi, bir növ, ümumi xarakter daşıyırdı. Yəni o, İrəvan xanlarının şəcərəsinin dərinliyinə getməyərək bəzi maraqlı, vacib məqamlardan söhbət açmışdı. Necə deyərlər, maraq mənə də güc gəldi. Çünki Naxçıvan xanlığının tarixini araşdırarkən İrəvan xanlığı ilə bağlı bir çox məsələlər də mənim üçün aydınlaşmışdı.

Turhan Turqutla elektron poçt vasitəsilə tanışlıqdan sonra bir müddət hər gün məktublaşdıq. Onun haqqında bir az sonra.

Məqalədə bəzi məsələlərə daha ətraflı aydınlıq gətirmək üçün İrəvan xanlığının tarixinə azacıq da olsa, ekskurs edək.

Bir çox arxiv mənbələrindən və İrəvan xanlığına aid yazılmış kitablardan məlum olur ki, Həsənəli xan Qacar 1755-1759-cu illərdə İrəvan xanlığını idarə etmişdir. "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" (Bakı, 2009, səh. 53) monoqrafiyasında öz əksini tapan Həsənəli xanın İrəvanın yerli Qacarlarından olduğu haqda məlumatı bir çox mənbələr təsdiqləyir. Və oradaca qeyd edilmişdir ki, Həsənəli xan Qacar hələ Nadir şah dövründə İrəvan hakimi olmuş və şah tərəfindən cəzalandırılaraq hər iki gözü çıxarılmışdı. 1759-1760-cı illərdə onu qardaşı Hüseynəli xan Qacar əvəz etmişdir.

Buradaca bir haşiyə çıxmaq maraqlı olardı. Şəcərəşünas alim Ənvər Fərəcov "İrəvan xanları, onların mənşəyi, nəsilləri" adlı məqaləsində (Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin xəbərləri, 6-cı buraxılış, Bakı, 2007, səh. 71-77) yazır: "Həsənəli xan İrəvanı yenidən qurmuş, iqtisadiyyatını dirçəltmiş, əhalisini yaxşı yaşamla təmin etmişdi. Həsənəli xanın Məhəmməd xan, Məhəmmədəli xan adlı oğulları vardı".

Ənvər Fərəcov məqaləsini farsdilli sənədlər əsasında hazırladığından buradakı məlumatlar yenidir. Onun yazdığından məlum olur ki, 1827-ci ilin iyununda Naxçıvandakı Abbasabad qalasında gedən döyüşlərdə 4 min bəxtiyarı və azərbaycanlı sərbazlara Məhəmməd xan başçılıq edirmiş. Rusiya qoşunları qalanı tutandan sonra onu da Tiflisə əsir aparmışdılar.

Tədqiqatçı-alim Həsənəli xanın və Hüseynəli xanın atasının Xəlil xan olduğunu da qeyd etmişdir. Bu, həmin Xəlil xandır ki, 1751-1755-ci illərdə İrəvana xanlıq etmişdir.

İrəvan şəhərində anadan olan Hüseynəli xan mükəmməl mədrəsə təhsili almışdı. O, qurucu, səxavətli bir xan olmuşdur. Hətta o, İrəvan şəhərini yenidən qurmaq üçün Xoy xanlığının baş memarı Mirzə Cəfəri İrəvana dəvət etmişdi. Bu haqda "İrəvan xanlarının diplomatik məktubları" külliyyatında ətraflı məlumat vardır. Görkəmli Azərbaycan memarı Mirzə Cəfər Xoylu məşhur Yeni Xan Sarayını tikmişdir.

Azərbaycan memarlığının nadir incilərindən olan Göy məscidi Hüseynəli xan tikdirdiyi üçün onun şərəfinə hələ sağlığında və sonralar da bu məscid Hüseynəli xan məscidi adlanırdı. Həmin məscidi 1988-ci ildə erməni vandalları yandırmışlar.

1783-cü il noyabrın 9-da qiyamçılar Hüseynəli xanı öldürmüşlər.

Hüseynəli xan Naxçıvan xanı I Kalbalı xanın və Xoy xanı Əhməd xanın qayınatası idi. Hüseynəli xanın Qulaməli xan və Məhəmməd xan, Məhəmmədqulu xan adlı oğulları, Tükəzban xanım və Səltənət xanım adlı qızları olmuşdur. Digər övladları da ola bilər, hələlikdə kameral siyahılarda yuxarıda qeyd etdiklərimizin adlarına rast gəlmişik.

Qulaməli xanın 15 yaşı vardı. Atasının ölümündən sonra onu xanlıq taxtına əyləşdirmişlər. Və o, cəmi 8 ay hakimiyyətdə qala bilmişdir. 1783-cü ildə hakimiyyətə gəlsə də, 1784-cü ilin yayında saray çevrilişi zamanı qətl edilmişdir. Onun yerinə 12 yaşlı Məhəmməd xan (bəzi mənbələrdə Məhəmmədhüseyn yazılıb – müəllif) təyin olunmuşdur. Məhəmməd xan da atası Hüseynəli xan kimi qurucu və xeyirxah bir xan olmuşdur. O, kürəkənləri naxçıvanlı I Kalbalı xanla çox vaxt eyni diplomatiya apardığından Fətəli şahın qəzəbinə gəlmiş və 1806-cı ildə tutulub Tehran həbsxanasına aparılmışdı. Qeyd edək ki, o, hələ Ağa Məhəmməd şah Qacarın da hakimiyyəti dövründə həbs edilmişdi. Sənədlərin dili ilə desək, Məhəmməd xan 1784-cü ildən 1805-ci ilin iyununa qədər İrəvana xanlıq etmişdir. (1797-ci ildə üçaylıq fasilə olub).

Məhəmməd xanın Rzaqulu xan, Həsənəli xan, Hüseynəli xan və Məhəmmədhüseyn xan adlı oğulları olmuşdur.

Ənvər Fərəcovun yazdığına görə, onların üçü şair olub. Qeyd edək ki, Xəlil xanın 3-cü oğlu Məhəmmədhəsən xanı 1783-cü ildə qardaşı Hüseynəli xanla birlikdə öldürmüşlər.

Ənvər Fərəcovun araşdırmalarında İrəvan Qacarlarının bu qolu Ziyadlılar kimi qeyd olunmuşdur. Bəzi kitablarda onlar Dəvəli Qacarlar kimi yazılmışdır. Xarici ölkələrdə yaşayan varislər isə Turqutlar olduqlarını yazırlar. Bizcə, İrəvanlı Hüseynəli xan Dəvəli Qacarlardandır. Hər halda bunun ciddi araşdırmaya ehtiyacı var. Çünki İrəvan xanlığında Dəvəli şəhəri olub və sovet hakimiyyəti illərində bu şəhəri Ararat adlandırıblar.

1806-cı ilin dekabrından 1827-ci il oktyabrın 13-dək İrəvana xanlıq edən Hüseynqulu xan Qacarın və qardaşı Sarı Aslanın (Həsən xanın) Hüseynəli xanla qohumluğu haqda hələ ki, baxdığımız sənədlərdə məlumata rast gəlmirik. Gürcüstan Milli Arxivində İrəvan xanı Məhəmməd xanın qardaşı Məmmədqulu xana məxsus olan bir arxiv qovluğunda onun hərbçi olması haqda məlumat vardır. Həmin sənəddən məlum olur ki, hərbi rütbəsi kapitandır. İrəvan xanlığı Rusiya tərəfindən işğal ediləndən sonra da İrəvanda yaşamış və xanlıq titulunu ondan almamışlar. Qeyd edək ki, ona məxsus arxiv işinin üzərində "Kapitan Məmmədqulu xan" yazılmışdır.

Məmmədqulu xanın oğlanlarından biri Mehbalı xan olub.



Bəzən sənədlərdə Möhbalı, Möhübəli xan kimi də qeydlərə rast gəlinir.

Naxçıvan tarixinin XIX yüzilliyin ikinci yarısından üzübəri açılmamış səhifələrini araşdırarkən İrəvan xanlarının varislərindən olan Abbasqulu xan İrəvanskinin adına tez-tez rast gəlirik. Bizim araşdırdığımız fotoşəkildə Abbasqulu xan İrəvanski ortada əyləşmişdir.

Abbasqulu xan Mehbalı xan oğlu, təxminən, 1830-cu ildə İrəvan şəhərində doğulmuşdur. Babası Məmmədqulu xan 1846-cı ildə vəfat edəndə Abbasqulu xanın 16 yaşı vardı. Abbasqulu xan gənc yaşlarından İrəvan quberniyasında nüfuzlu şəxsiyyətlərdən biri olmuşdur. Onun İrəvan şəhərində 1860-cı ildən gördüyü işlər haqqında o dövrün mətbuatı da ətraflı məlumat verir. Abbasqulu xan dövrünün ziyalısı kimi tanınmış, İrəvan Şəhər Dumasına üzv seçilmişdir (1882-1899). O, maarifçilik işlərində də öz maddi köməyini əsirgəməmişdir. Abbasqulu xan İrəvan rus-türk məktəblərinin fəxri nəzarətçisi vəzifəsini daşımaqla bərabər, xeyriyyəçilik də etmişdir. Onun haqqında "Qafqaz təqvimi"ndə və "Qafqaz" qəzetində belə materiallara daha çox rast gəlirik. Abbasqulu xan Naxçıvanla çox bağlı olmuşdur.

Yuxarıda qeyd etdiyimiz kimi, İrəvanın Dəvəli Qacarlarını Naxçıvanın Kəngərli xanları ilə qohumluq telləri bağlayır. Abbasqulu xanın da həyat yoldaşlarından ikisi Naxçıvandan olmuşdur: general İsmayıl xanın qızı Tərlan xanım və general-mayor II Kalbalı xan Naxçıvanskinin qızı Zərrintac bəyim. Abbasqulu xanın ikinci həyat yoldaşı Tərlan xanımdan 7 övladı olub: Kərim xan, Əli xan, Həsən xan, Xanlar xan, Fəxrəntac xanım, Gövhərtac xanım və Tacı xanım. Haqqında söhbət açdığımız fotoşəkildə Abbasqulu xandan sağda oturan onun qızı Gövhərtac xanımdır, qucağındakı uşaq oğlu Əziz xandır. İkinci cərgədə solda ayaq üstdə dayanan ikinci şəxs onun həyat yoldaşı Bəhram xan Naxçıvanskidir. Bəhram xan 1872-ci ildə Naxçıvan şəhərində İsmayıl xanın oğlu Aman xanın ailəsində anadan olmuşdur. Anası Xanbikə Xurşidbanu Natəvanın qızıdır. Uşaqlıq illəri 1886-cı ildən etibarən Şuşada keçmişdir. 1899-1904-cü illərdə Naxçıvan şəhər polis pristavının köməkçisi işləmişdir. 1898-1903-cü illərdə Naxçıvan şəhərindəki müsəlman ibtidai məktəbinin fəxri nəzarətçisi də olmuşdur. Bəhram xanın kollej, katib, asessor, titulyar müşavir, yəni saray müşaviri olması haqda da məlumat vardır. O, 1906-1909-cu illərdə Naxçıvan şəhərinin starostası olmuşdur. 1919-cu ilin yanvar ayından Naxçıvan Araz-Türk Respublikasının xarici işlər naziri vəzifəsində işləmişdir. 1919-cu ilin avqustundan Naxçıvan şəhərində yerləşən Cənub-Qərbi Azərbaycan general-qubernatorunun köməkçisi işləyən Bəhram xan həmin ilin sonunda Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyinin Lənkəranda tam səlahiyyətli nümayəndəsi təyin edilmişdir.

1920-ci ildən İrana mühacirətə gedən Bəhram xan Səlmasda və Təbrizdə yaşamışdır. O, Culfa-Təbriz dəmir yolunda yoxlayıcı işləməklə bərabər, həm də "Müstəqil Qafqaz" təşkilatının üzvü olmuşdur. Fotoşəkildə ikinci cərgədə Bəhram xandan sağda ayaq üstdə duran Abbasqulu xanın oğlu Həsən xandır. Onun qarşısında oturan qadın həyat yoldaşı Nuraleyin xanımdır. Rus hərbi şərqşünası K.N.Smirnov yazır ki, Abbasqulu xanın oğlu Həsən xan 1934-cü ildə İrəvanda yaşamışdır. Amma Həsən xanın oğul nəvəsi Turhan Turqutun dediyinə görə, onun ata babası Həsən xan 1927-ci ildə İrana, sonra isə Türkiyəyə mühacirət etmişdir.

Sözarası deyək ki, bu tarixi fotoşəklin doğru-dürüst araşdırılmasına Turhan Turqut köməklik göstərmişdir. Onun dediyinə görə, Həsən xan 1898-ci ildə Bəhmən Mirzə Qacarın qızlarından Nuraleyin xanımla ailə qurmuşdur. Bu nikahdan beş uşaqları olub: Hüseyn xan, Fərid xan, Ruhsarə, Sami və Adilə xanım.

Həsən xanın böyük oğlu Hüseyn xan 1900-cü ilin noyabr ayında İrəvan şəhərində doğulmuşdur. O, İrəvandakı gimnaziyanı bitirmişdir. 1917-ci ilin oktyabr ayında (köhnə təqvimlə), Rusiyada hökumətin yıxılmasından sonra erməni daşnaklarının terrorundan yaxa qurtarmaq üçün Həsən xan ailəlikcə Naxçıvana köçmüşdür. Bir müddət Naxçıvanın müdafiəsində döyüşən Həsən xanın oğlu Hüseyn xan sonralar Türkiyəyə getmiş və Osmanlı ordusunda zabit kimi hərbi xidmətə başlamışdır. Türkiyə ordusunun apardığı döyüşlərdə fərqlənən Hüseyn xan "Dəmir Hilal" nişanı ilə təltif edilmişdir. Sonrakı döyüşlərdə şücaətinə görə onu "İstiqlal" medalı ilə təltif etmişlər. Müharibə qurtardıqdan sonra Ankarada mühafizə alayında hərbi xidmətini davam etdirmişdir. 1930-cu ildə hava qüvvələrində hərbi xidmətə başlayan Hüseyn xan Fransaya iki illiyə ezam olunur. 1932-ci ildən 1946-cı ilədək hərbçi təyyarəçilərin yetişdirilməsində əlindən gələni əsirgəmir. Türkiyənin hava qüvvələrində çox sevilən, əfsanəvi bir zabitdən çox, həm də dərin zəkası ilə tanınır. 1960-cı ildə ona general hərbi rütbəsi verilir. Sonralar istefaya çıxan Hüseyn xan 1971-ci ildə Ankarada vəfat etmişdir. Hüseyn xan 1936-cı ildə Ləman adlı qızla ailə qurmuş, Nur və Turhan adlı iki uşağı olmuşdur. Onlardan biri – 1940-cı ildə doğulan Nur Ümit Arik adlı diplomatla ailə qurmuşdur. Digəri Turhan Turqutdur ki, 1946-cı ilin iyul ayında Türkiyənin İzmir şəhərində doğulmuş və Ankara Universitetinin Hüquq fakültəsini bitirmişdir.

Fotoşəkildə ön cərgədə soldan birinci Abbasqulu xanın oğlu Xanlar xandır, qucağındakı oğludur. Abbasqulu xanın qarşısında oturan isə sonbeşik qızı Tacı xanımdır. Maku sərdarının nəvəsi Əlixanla ailə qurmuşdur. Maraq üçün deyək ki, Əlixanın anası general-mayor II Kalbalı xanın qızı Şahbəyimdir.

Abbasqulu xandan solda oturan qızı Fəxrəntac xanımdır. Arxa cərgədə solda ayaq üstə dayanan Rəhim xan Naxçıvanski balaca qızı Xurşidlə, ondan sağdakı isə Fəxrəntac xanımın həyat yoldaşı Cəfərqulu xan Naxçıvanskidir.

Fəxrəntac xanımın yanındakı Cəfərqulu xanın ikinci həyat yoldaşıdır. Fəxrəntac xanımın qarşısında oturanlar onun qızı Nazlıbəyim, oğlu III Kalbalı xandır. Abbasqulu xanın böyük oğlu Həsən xan Türkiyənin Əskişəhərində 1956-cı ilədək yaşamış və orada da vəfat etmişdir. Onlar Türkiyədə Turqut familiyasını qəbul etmişlər. Turhan Turqutun dediyinə görə, babası Həsən xan deyirmiş ki, biz Turqutlar soyundanıq. Yəqin ki, Turqutlar Qacarların Türkiyədə yaşayan bir qolu olmuşdur.

Abbasqulu xan İrəvanski 1905-ci ildə İrəvanda və Naxçıvanda xalqı başına toplayaraq erməni daşnaklarına qarşı vuruşmuş, müsəlmanların İrəvandan köçürülməsinin qarşısını almışdır.

Abbasqulu xanın birinci həyat yoldaşı Bilqeyis xanımdan 3 övladı – 2 oğlu və 1 qızı olmuşdur. Böyük oğlu Əli xandır ki, evdə Ağa xan çağırıblar. Əli xan məşhur hərbçi idi. 1918-ci ildə Naxçıvanın müdafiəsində vuruşmuş, sonra qardaşı Kərim xanla Kabardaya getmişdir. Onun Bülbül xanım adlı qızı olmuş və bir müddət Naxçıvanda yaşamışdır.

Abbasqulu xanın ikinci oğlu Böyük xanın (əsl adı Məmmədqulu xandır) arvadı Tovuz xanım Naxçıvanskaya İsmayıl xanın oğlu Bəhman xanın qızıdır. Tovuz xanımın anası Çimnaz xanım general-mayor II Kalbalı xanın qızıdır. Məmmədqulu xanla Tovuz xanımın 7 övladı olub: Nazxanım, Yəməntac xanım, Mehdiqulu xan, Əfşan xanım, Allahyar xan, Davud xan və Nəcəf xan.

Allahyar xan 1919-cu ildə Naxçıvanda erməni daşnaklarına qarşı mərdliklə vuruşmuşdur. Sovet hakimiyyəti illərində o, Leninqradda (indiki Sankt-Peterburqda) Tibb İnstitutunda oxumuşdur. 1937-ci ildə repressiyanın qurbanı olmuşdur. Onun digər bacı-qardaşları haqqında əvvəlki yazılarımızda təfsilatı ilə söhbət açmışıq.

Bu gün dünyanın ən gözəl və abad şəhərlərindən biri olan Naxçıvanın mərkəzində Cəmşid xan Naxçıvanskinin ev-muzeyi yerləşir. Hər dəfə böyük salona gələndə bu tarixi fotoşəklin qarşısında dayanıram. Bir an ərzində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın azadlığı, müstəqilliyi uğrunda qəhrəmanlıqla döyüşmüş mərd oğulları xəyalən xatırlayıram... Bu tarix çox-çox qədimdir, zəfərlidir, faciəlidir. Məşhur polyak bəstəkarı Fridrix Şopenin 1837-1839-cu illərdə bəstələdiyi "Matəm marşı"nın sanki kədərli ladlarını eşidirəm... Burada böyük hüzn və dərin lirizm var...

Birdən dahi dövlət xadimi, müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin müdrik kəlamı daxilimdə böyük, sönməz işıqlanma yaradır: ***"... İrəvan xanlığı var, Naxçıvan xanlığı ilə İrəvan xanlığı bir-biri ilə çox bağlı idi. İndi ermənilər deyirlər ki, yox, orada ermənilər olubdur. Amma, həqiqətən, İrəvan xanlığıdır. Naxçıvan xanlığını siz dərindən öyrənəndə, mütləq İrəvan xanlığına gedib çıxacaqsınız. İrəvan xanlığı haqqında materialları Rusiyanın arxivlərində, Sankt-Peterburqda, rus imperiyasının arxivlərində tapacaqsınız və görəcəksiniz ki, dünyada nələr var".***

Yuxarıda haqqında söhbət açdığımız tarixi fotoşəkil də İrəvan və Naxçıvan xanlarının bir-birlərinə çox yaxın və sədaqətli olduqlarını təsdiqləyən orijinal arxiv sənədidir. Fotoşəklin arxasında çəkildiyi tarix rusca qeyd edilmişdir: Naxçıvan, 1906.

Abbasqulu xan hər iki tərəfin ağsaqqalı sayılırdı. Yazının sonunda bir arxiv sənədinin bizə çatdırdığı əhvalatı qürurla xatırlayıram. General-adyutant Hüseyn xan Naxçıvanski qardaşları Rəhim xana və Cəfərqulu xana külli miqdarda pul göndərmiş ki, İrəvanda Abbasqulu xana çatdırsın. O, İrəvan ətrafındakı torpaqları alsın, imkan verməsin ermənilərin almağına. Abbasqulu xan Naxçıvanskilərin İrəvanda səlahiyyətli nümayəndəsi idi. Biz bu tarixi fotoşəkildəki şəxsiyyətlərin kimliyini Türkiyənin İstanbul şəhərində yaşayan Turhan Turqutun köməkliyi ilə araşdırıb sona yetirdik. Amma buradakı hərbçilərin, döyüşçülərin həyat və fəaliyyətlərinin xeyli hissəsi öyrənilməmiş qalır. Necə deyərlər, tədqiqatçı axtarış yollarında gərək.

**Musa QULİYEV**
***tarix üzrə fəlsəfə doktoru***

## Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş elmi konfrans



*Naxçıvan Dövlət Universitetində 5 oktyabr – Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş elmi konfrans keçirilib.*

Elmi işlər üzrə prorektor, dosent Mübariz Nuriyev müəllimləri bayram münasibətilə təbrik edərək bu peşənin müqəddəsliyindən və məsuliyyətindən danışıb.

Qeyd olunub ki, Azərbaycanda müəllim kadrlarının hazırlanması və təkmilləşdirilməsi işi daim diqqət mərkəzində saxlanılır və bu istiqamətdə mühüm işlər görülür.

Sonra Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor Elbəyi Maqsudovun "Müasir dərs və müəllim-tələbə münasibətləri", Pedaqogika və psixologiya kafedrasının müdiri, dosent Vahid Rzayevin "Müəllimlik şərəfli peşədir" adlı məruzələri dinlənilib.

Məlumat üçün bildirək ki, YUNESKO-nun qərarına əsasən 1966-cı ildən etibarən hər il oktyabrın 5-i Beynəlxalq Müəllimlər Günü kimi qeyd olunur

## "Nizami" layihəsi çərçivəsində növbəti seminar keçirilib

25-29 sentyabr 2016-cı il tarixlərdə İsveçin Upsala Universitetində "Azərbaycanda doktorantura təhsilinin vahid Avropa ali təhsil məkanının standartlarına uyğunlaşdırılması və strukturlaşdırılması" ("Nizami") layihəsinin üçüncü seminarı keçirilib. Qeyd edək ki, layihənin ilkin işçi görüşü 6-10 dekabr 2015-ci il tarixlərdə Fransanın Monpelye Universitetində baş tutub.

Seminarın keçirilməsində əsas məqsəd bir il ərzində görülən işlərin müzakirəsi və gələcək fəaliyyət planının müəyyənləşdirilməsindən ibarət olub. Seminarda layihənin tərəfdaşları olan Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Milli Elmlər Akademiyası, Azərbaycan Memarlıq və İnşaat, Dövlət İqtisad, Bakı Dövlət, Naxçıvan Dövlət, Dövlət Aqrar, Xəzər, Texniki, Dillər universitetlərindən, Avropadan isə 4 ali təhsil müəssisəsindən nümayəndələr iştirak ediblər.

Naxçıvan Dövlət Universitetini seminarda rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov və layihənin universitet üzrə əlaqələndiricisi, elmi işlər üzrə prorektor, dosent Mübariz Nuriyev təmsil ediblər.

Məlumat üçün bildirək ki, Azərbaycanın qabaqcıl tədris ocaqlarından olan Naxçıvan Dövlət Universiteti 2011-ci ildə "Erasmus+", "Erasmus Humeria" layihələrinə qoşulub. Tədris ocağı həmçinin Avropa Birliyinin 7 Tempus layihəsində də iştirakçısıdır. Layihələr çərçivəsində universitet əməkdaşlarının müxtəlif xarici ölkələrdə keçirilən konfranslarda iştirakı təmin edilir, tələbə və müəllim mübadiləsi həyata keçirilir, eləcə də xarici mütəxəssislərin universitetdə görüşləri və dərsləri təşkil olunur.

"Nizami" layihəsinin seminarında Azərbaycanda doktorantura təhsilinin yaradılması, təşkili qaydaları və mövcud vəziyyəti ilə bağlı təqdimatlar dinlənilib, həmçinin Avropada doktorantura təhsilinin təşkili qaydaları müzakirə olunub və Azərbaycanın doktorantura təhsili ilə müqayisələr aparılıb.

**Nərmin CABBAROVA**

## Naxçıvan Muxtar Respublikası üzrə 2016-cı ilin sentyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 375052 | 37505 | 37618 | 100,3 |
| 2. | Şahbuz rayonu | 217523 | 21752 | 21813 | 100,3 |
| 3. | Sədərək rayonu | 95255 | 9526 | 9548 | 100,2 |
| 4. | Culfa rayonu | 323964 | 32396 | 32463 | 100,2 |
| 5. | Kəngərli rayonu | 265072 | 26507 | 26547 | 100,2 |
| 6. | Şərur rayonu | 661425 | 66143 | 66205 | 100,1 |
| 7. | Naxçıvan şəhəri | 905185 | 90519 | 90580 | 100,1 |
| 8. | Babək rayonu | 627063 | 62706 | 62726 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 1757147 | 175674 | 186734 | 106,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **5227686** | **522728** | **534234** | **102,2** |

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2016-cı ilin sentyabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 412 | 28,8 | 29,0 | 100,7 |
| 2. | Ordubad rayonu | 887 | 62,1 | 62,5 | 100,6 |
| 3. | Culfa rayonu | 1142 | 79,9 | 80,2 | 100,4 |
| 4. | Kəngərli rayonu | 550 | 38,5 | 38,6 | 100,3 |
| 5. | Babək rayonu | 1857 | 130,0 | 130,2 | 100,2 |
| 6. | Naxçıvan şəhəri | 3426 | 239,8 | 240,1 | 100,1 |
| 7. | Şərur rayonu | 1709 | 119,6 | 119,7 | 100,1 |
| 8. | Sədərək rayonu | 290 | 20,3 | 20,3 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 21983 | 1538,9 | 1539,6 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **32256** | **2257,9** | **2260,2** | **100,1** |

**Qeyd:** Sentyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 32 milyon 256 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 257 min 900 manat olmuş, cəmi 2 milyon 260 min 200 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,1 faizini təşkil edir.

*Bu cür adları fikirləşməyə hər kəsin "təxəyyülü" yetməz: Gilənar, Servant, Balıq, Moruq, Kombayn, Kolxoz…*

... Muxtar respublikamızda körpələrə verilən adların mənalı olmasına xüsusi diqqət yetirilir. Son zamanlar uşaqlarımıza qoyulan adlar

## "Adını mən verdim, yaşını Allah versin"
### *Uşaqlara ad qoyarkən nəyə əsaslanırıq?*

Ad olduqca vacib məsələdir. Qətiyyən şişirtmirəm. Hətta bəzi inanc sistemlərinə görə, insanın adı onun gələcək taleyini müəyyən edir. Ona görə də qədim dövrlərdən üzü bu yana ata-analar öz övladlarına pozitiv məna daşıyan adlar verməyə çalışıblar. Xatırlayıram ki, orta məktəbdə oxuyanda Azərbaycan dili müəllimim belə deyərdi: hər kəsin xarakterini adı müəyyənləşdirir. Hətta adlarınızın rəngləri belə, vardır. Müəllimimin fikrincə, mənim rənglərim tünd qırmızı və göy idi… Mən də bayrağımızın rənglərinə oxşar rənglərimin olması ilə qürur duyub bir xeyli sevinmişdim.

Ad və soyadın insan taleyinə təsiri barədə deyilənlərin bir hissəsi fərziyyələr olsa da, son illərdə aparılan tədqiqatlar qədimlərdən bəri yaşayan bir çox anlamların doğru olduğunu sübut etdi. İnanılması asan olmasa da, insanın davranışını, xasiyyətini və hətta taleyini onun adı müəyyənləşdirir.

Astroloqlar deyir ki, adlar yeni doğulan körpəyə verilərkən belə, fərqində olmadan adı qoyan şəxs onun gələcəyini yazır. Astrologiyada eynilə rəqəmlərin insanlar üzərində təsirinin olması kimi, hərflərin də insanlar üzərində çox böyük təsiri olduğu artıq sübut edilib.

Qeyd edək ki, insanın adının taleyinə sirayət etməsi inancı qədim Misir və hind mədəniyyətindən qaynaqlanır. Maraqlı burasıdır ki, Hindistanda hələ də bu ənənəyə sadiq qalırlar. Hazırda bu ölkədə doğulan hər yeni körpə üçün astroloq-kahin-münəccim çağırılır, o, müqəddəs kitabların köməyi ilə uşağa ən uğurlu adı seçir. Adqoyma mərasimi xüsusi təşkil edilir. Tanrıya səcdə edərək od ətrafında körpəni dolandırır, oda qansız qurbanlar (meyvə-tərəvəz, paxlalılar, ağartı məhsulları) verir, Tanrıdan onun adının uğurlu olmasını diləyirlər. Çünki ad insan həyatının, demək olar ki, yol nişanıdır. Qədim Romada isə belə bir deyim olub: "nomen est omen", yəni "ad taledir".

Müsəlman adətlərinə görə isə yeni doğulan körpəyə ailənin böyüyü ad verir. Ata, ya da baba körpəni qucağına alır və onun qulağına dua oxuyur və 3 dəfə adını təkrarlayır. bunun əyani sübutudur. Lakin bəzən uşağını mənası bilinməyən, haradan gəldiyi əsaslandırılmayan sözlərlə adlandırmaq istəyənlər də olur. Hətta onlar bu iddialarında çox qərarlı davranırlar. Uşaqlara Viktoriya, Melisa, Aleks adı qoymaqla onları modern edəcəyinizi düşünürsünüzsə, çox yanılırsınız. Əslində, bu adlar heç modern deyil.

Fikrimizcə, ad mümkün qədər milliliyi ifadə etməli, yığcam, digər tərəfdən də mənalı olmalı, özündə Azərbaycançılıq ideyasını qoruyub saxlamalıdır. Ancaq bu gün, təəssüf ki, adqoyma məsələsində problemlər kifayət qədərdir. Bəzi valideynlərdə elə təəssürat yaranar ki, biz onların fikirlərinə qarşıyıq. Amma bizim başlıca məqsədimiz odur ki, balalarımız adları səslənəndə utanmasın, əksinə, qürur hissi keçirsinlər. Valideynin övladına "Almalı" adı qoyması hansı məntiqə uyğundur?!.

Bu gün balaca Almalı öz adından utanır. Baxmayaraq ki, bu ad onun böyük babasının adıdır. Düzdür, Almalını ailə üzvləri Ümid çağırırlar. Məktəbdə isə müəllimlər və sinif yoldaşları tərəfindən ona "Almalı" deyə müraciət edildikdə o, narahat olub ağlayır. Bu cür situasiyalar balacaların psixologiyasına da mənfi təsir göstərir.

"Kitabi-Dədə Qorqud" dastanlarında ağzıdualı ailələr övlad arzusu ilə Tanrıdan övlad diləyər, Tanrı da onlara övlad bəxş edərdi. Oğuz elinin insanları yeddi gün, yeddi gecə bu sevinci bayram kimi qeyd edərdilər: şadlıq məclisi qurular, boy boylanar, soy soylanardı. Dədə Qorqud cəmiyyətində yeni doğulan körpəyə indiki kimi uşaq hələ anadan olmamış ad qoymazdılar. Bir müddət keçər, uşağın bu və ya digər xüsusiyyətini müşahidə edər və həmin xüsusiyyətə uyğun ad seçərdilər. Yalnız bundan sonra el ağsaqqalı Dədə Qorqud gəlib "Adını mən verdim, yaşını Allah versin" deyərdi.

Ad insanın ömürboyu daşıyacağı bir məfhum kimi çox vacibli və ciddi məsələdir. Gəlin uşaqlarımıza mənalı adlar qoyaq və onlara ulu Dədə Qorqudun sözlərini xatırladaq: "Adını mən verdim, yaşını Allah versin"!!!

**Nərgiz İSMAYILOVA**

*M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında Zaur Vedilinin "Şahzadə Bəndalı" pyesi əsasında hazırlanmış eyniadlı tamaşaya ictimai baxış olub.*

## Yeni tamaşaya ictimai baxış olub

Tamaşanın quruluşçu rejissoru Azərbaycan Respublikasının Xalq artisti Yasəmən Ramazanova, quruluşçu rəssamı Murad Babayev, bəstəkarı Əli Məmmədovdur. Dönməz iradə, saf əqidə uğrunda çətinliklərə mətanətlə sinə gərmək, arzuya çatmaq üçün zəhmətə qatlaşmaq kimi tərbiyəvi keyfiyyətlərin aşılandığı səhnə əsərində tamaşaçılar Şahzadə Bəndalı (Arzu Səfərov), padşah (İlham Babayev), məmləkət padşahı (İlqar Babayev), əjdaha (Süleyman Süleymanov), div (İlham Babayev), ağ ayı (İlqar Babayev), çolaq qarışqa (Vəsmə Quliyeva), qarı nənə (Ulduz Süleymanova), başqa məmləkət padşahı (İbad Nəbiyev) və Gülgəz xanım (Əfqanə Ələsgərova) obrazları ilə tanış olacaqlar.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri, Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyev, nazirliyin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzinin direktoru Səyyar Məmmədov çıxış edərək tamaşa haqqında fikir və rəylərini bildiriblər. Vurğulanıb ki, xalq nağılları motivləri əsasında səhnələşdirilmiş "Şahzadə Bəndalı" tamaşası nağıllarımızda təbliğ olunan tərbiyəvi ideyaların təbliği baxımından təqdirəlayiqdir.

Sonda əsərin müəllifi Zaur Vedili çıxış edərək uşaqlar üçün yazdığı pyesin tamaşaya qoyulmasına görə minnətdarlığını bildirib.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 741